# “Azərbaycanın İslamaqədərki tarixi: alban abidələri” mövzusunda tədbir keçirilib

Bakı Slavyan Universitetində (BSU) “Azərbaycanın İslamaqədərki tarixi: alban abidələri” mövzusunda elmi konfrans və fotosərgi keçirilib. BSU və Azərbaycan Milli QHT Forumunun təşkilatçılığı ilə keçirilən tədbirdə dövlət rəsmiləri, qeyri-hökumət təşkilatlarının və KİV nümayəndələri iştirak ediblər.

Konfrans çərçivəsində fotomüxbir Kərəm Nəbiyevin Gədəbəy rayonu ərazisindəki alban abidələrindən bəhs edən foto-sərgisi də nümayiş olunub.

Konfransı giriş sözü ilə açan universitetin rektoru professor Asif Hacıyev Qafqaz Albaniyası və onun tarixi abidələri barədə danışıb. Bildirilib ki, antik dövrlərdə və erkən orta əsrlərdə indiki Azərbaycanın bütün bölgələri, Qarabağ da daxil olmaqla, Albaniya və Atropatena dövlətlərinin tərkib hissəsi olub. Məhz həmin dövrlərdə memarlıq sənəti bu ərazilərdə çox yüksək səviyyədə və böyük sürətlə inkişaf edib. Təqribən min illik tarixə malik alban dövlətinin mövcud olduğu dövrlərdə Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən Dağlıq Qarabağda öz spesifik quruluşuna görə tamam fərqli, alban-xristian dininə aid məbədlər, mədəniyyət nümunələri meydana gəlməyə başlayıb.

Fotomüxbir K.Nəbiyevin lentə aldığı fotoların bu baxımdan əhəmiyyətli olması iştirakçıların diqqətinə çatdırılıb.

***“Azərbaycan”***